**UNEC**

**AZƏRBAYCAN DÖVLƏT IQTISAD UNIVERSITETI**

**Təsdıq edırəm:**

**«Maliyyə və audit»**
**kafedrasının müdiri prof.**
**Ə.Ə.Ələkbərov**

**İmza:**

**15 sentyabr 2025-ci il**

Tədris ili: 2025/2026

**MALİYYƏ TƏHLİLİ FƏNNİ ÜZRƏ IŞÇI TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

Fənnin kodu: 00530

Fənnin növü: seçmə

Tədris semestri: payız

Fakültə: Maliyyə və Mühasibat

Qrup:

Tədris yükü: 45 saat (mühazirə/məşğələ -30/15)

Kredit sayı: 4 (dörd)

Kafedra: "Maliyyə və audit"

## II. Müəllim haqqında məlumat

Fənni tədris edən müəllim: i.e.d., prof. Hənifə Cəfərli, i.e.n., dos. Rahib Kazımov

E-mail ünvanı: jafarlihanifa1967@gmail.com

İş telefonu: (012) 492 40 04

Tələbələr üçün qəbul vaxtları: Cərşənbə günü, saat $14^{00}$-$16^{00}$

Bu sillabus Mühasibat Uçotu sistemində aparılan islahatlar nəticəsində, Maliyyə Hesabatlarının Beynəlxalq Standartları və Mühasibat Uçotuniun Beynəlxalq Standartları əsasında hazırlanmış normativ-hüquqi və metodoloji bazaya, həmçinin milli və beynəlxalq standartların tədrisi üzrə müvafiq təlim-tədris materiallarına, Beynəlxalq Maliyyə Hesabatları Şurası (İFRS) və ACCA (The Association of Chartered Certified Accountants) – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyasiyasının tələblərinin məzmununa uyğun olaraq "Mühasibat uçotu və audit" kafedrasının dosenti Hənifə Cəfərli tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn, əsas fənnlər siyahısına daxil olmaqla, mühasibat uçotu və audit ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrə maliyyə təhlilinin mahiyyəti, idarəetmə qərarlarının hazırlanmasında onun müstəsna rolu, metod və üsulları, informasiya mənbələrinin öyrənilməsi üçün lazım olan analitik

bacarıq və vərdişlər aşılayır. Fənndə təsərrüfat subyektlərində iqtisadi təhlilin təşkilinin nəzəri əsasları, o cümlədən onun məzmunu və idarə etmədə rolu, kompleks təhlil sistemi və onun təşkili metodologiyası, habelə iqtisadi təhlilin metodikası şərh olunur, xarici təcrübənin tətbiqi imкanları nəzərdən кeçirilir. Fənnin tədrisində ardıcıl olaraq təsərrüfat subyektlərinin fəaliyyətinin maliyyə təhlili, o cümlədən maliyyə nəticələrinin, mənfəət və rentabelliyin, maliyyə vəziyyətinin təhlilinə xüsusi diqqət yetirilir. Qiymətli кağızlarla əməliyyatların təhlili, risklərin qiymətləndirilməsi və onların idarə olunmasının zərurililiyi əsaslandırılır, inflyasiyanın mahiyyəti açıqlanmaqla inflyasiya şəraitində maliyyə xaraкterli qərarların əsaslandırılması metodiкası verilir. Arı- ayrı bölmələrdə təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks qiymətləndirilməsi metodikası, habelə maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasında funksional diaqnostikanın metodologiyası və metodikası araşdırılaraq tələbələrə zəruri biliklər və bacarıqlar aşılanır.

## IV. Fənnin məqsədi və vəzifələri

Fənnin tədrisində məqsəd tələbələrə analitik prosedurların həyata keçirilməsi və bazar iqtisadiyyatı şəraitində idarəetmə qərarlarının qəbul edilməsi vasitəsi kimi maliyyə təhlilinin metodlarından istifadə üzrə nəzəri biliklər və praktiki vərdişlər formalaşdırmaqdır.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- maliyyə təhlilinin informasiya mənbəyi kimi maliyyə hesabatlarının mahiyyətini və məzmununu şərh etmək;
- maliyyə hesabatlarının göstəricilər sisteminin təhlili zamanı istifadə olunan xüsusi metod və üsulların mahiyyətini və məzmununu başa salmaq;

• kommersiya təşkilatlarının maliyyəsinin idarə edilməsi sahəsində operativ və strateji idarəetmə qərarlarının əsaslandırılması üçün onların təsərrüfat-maliyyə fəaliyyətinin ekspres və kompleks təhlili zamanı istifadə olunan mühüm analitik prosedurların tələbələr tərəfindən praktiki olaraq mənimsənilməsini təmin etmək;

• təşkilatın maliyyə nəticələrinin təhlili və maliyyə vəziyyətinin diaqnostikası metodlarını müəyyən etmək;

• qiymətli кağızlarla əməliyyatların, risklərin idarə edilməsi məqsədi ilə təsərrüfat subyektlərinin kapitalının və aktivlərinin strukturunun qiymətləndirilməsi üsulları üzrə nəzəri biliklər və praktiki vərdişlər formalaşdırmaqdır.

• inflyasiya şəraitində maliyyə xaraкterli qərarların əsaslandırılması metodiкasını öyrənməklə tələbələrə gələcəкdə praкtiкi fəaliyyətlərində tətbiq etmələri üçün zəruri bacarıq və qabiliyyətlərin aşılanması.

## V. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr: **Bilməlidirlər:**

• maliyyə təhlilinin məqsədini, vəzifələrini və əsas prosedurlarını;

• maliyyə təhlilinin aparılmasının əsas metodikalarını;

• maliyyə təhlilinin obyektlərini və subyektlərini;
• maliyyə vəziyyəti haqında haqında hesabatın ümumi göstəricilərinin iqtisadi məzmununu; • təşkilatın əmlak vəziyyətinin, onun aktivlərinin və öhdəliklərinin strukturunun qiymətləndirilməsi metodikasını;
• təşkilatın maliyyə sabitliyinin, likvidliyinin və ödəmə qabiliyyətinin təhlili ilə əlaqədar analitik prosedurları;
• maliyyə vəziyyəti haqında haqında hesabatın quruluşunun qeyri qənaətbəxş olmasını müəyyən etmək üçün göstəricilərin təhlilini;
• maliyyə hesabatının müxtəlif formaları arasında qarşılıqlı əlaqəni;

• maliyyə təhlilinin əsas metodlarını, üsullarını və qaydalarını;

• təşkilatın maliyyə vəziyyətinin inkişafının diaqnostikası və poqnozlaşdırılmasının metodlarını və üsullarını;

• müvafiq tədqiqat obyektinin dəyişməsinə amillərin təsirinin müəyyən edilməsini;

• mənfəətin müəyyən edilməsinə iqtisadi və mühasibat yanaşmasını;

• maliyyə təhlilində istifadə olunan mənfəətin növlərini səmərəliliyin və işgüzar aktivliyin əsas göstəricilərini;

• pul axınının əsas anlayışlarına və onun qiymətləndirilməsinə yanaşmaları.

## VII. Prerekvizitlər

Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənlərin də tədris olunması zərurəti yoxdur. Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənnlər aşağıdakılardır: -- Maliyyə uçotu;

## VIII. Kursun proqramı

Proqram 30 saatlıq mühazirə, 15 saatlıq seminar olmaqla 45 saatlıq "ənənəvi tədris" moduluna əsaslanır. Proqramın müddəti 15 həftədir. Fenn 13 mühazirə mövzusundan ibaretdir. 1,2,3,4,6, 8,9,10,11,12,13-ci mövzulara 3 saat (2 saat mühazire ve 1 saat seminar-məşğələ olmaqla), 5-cü mövzuya 6 saat (4 saat mühazire ve 2 saat seminar-məşğələ olmaqla), 7-ci mövzuya 6 saat (4 saat mühazire ve 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

## IX. Fənnin mühazirə mövzuları

1. Kommersiya təşkilatlarının maliyyə – təsərrüfat fəaliyyətinin idarə edilməsində iqtisadi təhlilin rolu.
2. Kompleks iqtisadi təhlil sistemi və onun təşkili metodologiyası.

3. İqtisadi təhlilin metodu və onun xarakterik xüsusiyyətləri.
4. Maliyyə təhlilinin mahiyyəti və müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində onun rolu.
5. Təşкilatın maliyyə nəticələrinin təhlili.
6. Rentabelliyin göstiricilər sistemi və onların təhlili.
7. Təşкilatın maliyyə vəziyyətinin təhlili.
8. Kapitalın formalaşmasının və istifadəsinin səmərəliliyinin təhlili.
9. Potensial müflisləşmənin təhlili və qiymətləndirilməsi.
10. Təşкilatın investisiya fəaliyyətinin təhlili.
11. Təşкilatın dividend siyasətinin təhlili.
12. Sahibкarlıq risкininin təhlili.
13. Inflyasiya və onun maliyyə xaraкterli qərarların qəbul edilməsinə təsiri.

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

**XI. Əsas dərslik və dərs vəsaitləri**


1. H.A.Cəfərli. İqtisadi təhlil. Dərslik. «Elm və təhsil» nəşriyyatı, Bakı-2009. – 560 səh.
2. Müslümov S.Y., Kazımov R.N. "Maliyyə təhlili". Dərslik: Bakı, "CBS", 2012. 246 s.
3. H.A.Cəfərli. Maliyyə nəticələrinin təhlili. Metodik vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2013.- 55 səh.
4. H.A.Cəfərli. Maliyyə vəziyyətinin təhlili. Metodik vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2016- 135 səh.
5. H.A.Cəfərli. İnflyasiya və onun maliyyə nəticələrinə təsirinin təhlili. Metodik vəsait. «İqtisad Universiteti» nəşriyyatı, Bakı-2015.- 32səh.

6. Maliyyə hesabatlarının beynəlxalq standartlarına əsasən mühasibat uçotunun aparılması qaydaları. (Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının "30" yanvar 2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmişdir).

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Kommersiya təşkilatlarının maliyyə – təsərrüfat fəaliyyətinin idarə edilməsində təhlilin rolu-**2 saat** | İqtisadi təhlilin məzmunu, vəzifələri və onun digər iqtisad elmləri ilə qarşılıqlı əlaqəsi; İqtisadi təhlil idarəetmə qərarlarının qəbul edilməsinin əsas elementi kimi; İqtisadi təhlilin predmeti və obyekti; İqtisadi təhlilin növləri; Maliyyə və idarəetmə təhlilinin qarşılıqlı əlaqəsi. | 1 (fəsil 1) |
| 2 | Kompleks iqtisadi təhlil sistemi və onun təşkili metodologiyası-**2 saat** | İqtisadi göstəricilər sistemi və onların müxtəlif əlamətlər üzrə tipologiyası; Kompleks iqtisadi təhlilin məzmunu və mərhələləri; Təsərrüfat fəaliyyətinin təhlilinə sistemli yanaşma; | 1 (fəsil 2) |
| 3 | İqtisadi təhlilin metodu və onun xarakterik xüsusiyyətləri-**2 saat** | İqtisadi təhlilin kəmiyyət və keyfiyyət metodları; İqtisadi təhlilin metodu və metodikası anlayışı; Statistik, iqtisadi-riyazi təhlil metodları və üsulları; İqtisadi göstəricilərin amillər üzrə təhlili metodları. | 1 (fəsil 3) |
| 4 | Maliyyə təhlilinin mahiyyəti və müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində onun rolu -**2 saat** | Müasir şəraitdə maliyyə təhlilinin rolu; Maliyyə təhlilinin informasiya təminat; Maliyyə təhlilinin metod və üsullarının təsnifatı. | 2 (fəsil 1-2); |

| | | | |
|---|---|---|---|
| 5 | Təşkilatın maliyyə nəticələrinin təhlili-**4 saat** | Gəlirlər və xərclər anlayışı. Gəlirlər və xərclər müəssisənin maliyyə nəticələrinin formalaşmasının iqtisadi bazası kimi; Təhlilin vəzifələri və informasiya mənbələri; Müəssisənin maliyyə nəticələrinin təhlilinin göstəricilər sistemi; Maliyyə hesabatının məlumatları əsasında balans mənfəətinin strukturu və dinamikasının təhlili; Satışdan alınan mənfəətin icmal hesablar üzrə təhlili. | 1 (fəsil 10);<br>3 (fəsil 1-12); |
| 6 | Rentabelliyin göstiricilər sistemi və onların təhlili-**2 saat** | Rentabelliyin təhlilinin göstəricilər sistemi və onların hesablanılması metodikası; Aktivlərin rentabelliyi göstəricilərinin modelləşdirilməsi amilli təhlilin təşkilinin əsas mərhələsi kimi; Aktivlərin rentabelliyi göstəricisi təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəlilik parametri kimi; Xalis aktivlərin rentabelliyi göstəricisi xüsusi kapitaldan istifadənin səmərəliliyini xarakterizə edən iqtisadi indikator kimi; İstehsal fondları rentabelliyinin amilli təhlili; Məhsulun (iş və xidmətlərin) rentabelliyi və onun səviyyəsinin yüksəldilməsi ehtiyatlarının amilli təhlili və s. | 1 (fəsil 11); |
| 7 | Təşkilatın maliyyə vəziyyətinin təhlili-**4 saat** | Maliyyə vəziyyətinin təhlilinin əhəmiyyəti, vəzifələri və əsas üsulları; Maliyyə təhlilinin əsas analitik informasiya mənbələri və onların iqtisadi xarakteristikası; Müəssisənin maliyyə | 1 (fəsil 12);<br>4 (fəsil 1-10); |

| | | | |
|---|---|---|---|
| | | vəziyyəti və onun sabitlik səviyyəsinin qiymətləndirilməsi üsulları; Maliyyə vəziyyətinin ekspress-təhlili; Maliyyə müstəqilliyinin təhlili; Ödəmə qabiliyyətinin və likvidliyin təhlili və s. | |
| 8 | Kapitalın formalaşmasının və istifadəsinin səmərəliliyinin təhlili-**2 saat** | Müəssisənin işgüzar fəallığının təhlili; Dövriyyə kapitalından istifadənin təhlili; Xüsusi və borc kapitalından istifadənin səmərəliliyinin təhlili; İstehsal-maliyyə levericinin təhlili. | 1 (fəsil 12);<br>2 (fəsil 5); |
| 9 | Potensial müflisləşmənin təhlili və qiymətləndirilməsi-**2 saat** | Diaqnostik tədqiqat metodu müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasının mühüm vasitəsidir; Müəssisənin diaqnostikasının metodologiyası və metodikası; Müəssisənin potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi üçün zəruri olan göstəricilər sistemi. | 1 (fəsil 14); |
| 10 | Təşкilatın investisiya fəaliyyətinin təhlili-**2 saat** | İnvestisiya fəaliyyəti təhlilinin məqsədi, vəzifələri və informasiya mənbələri; İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin təhlili; İnvestisiya fəaliyyətini xarakterizə edən göstəricilər sistemi və onların təhlili; İnvestisiya layihələrinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi. | 1 (fəsil 11,15);<br>2 (fəsil 22, 23);<br>3 (fəsil 14); |
| 11 | Təşкilatın dividend siyasətinin təhlili-**2 saat** | Təşkilatın dividend siyasətinin təhlili; Qiymətli kağızlar bazarı; Maliyyə aktivlərinin qiymətləndirilməsinin baza mod modeli; Qiymətli kağızlarla əməliyyatların təhlili. | 1 (fəsil 13);<br>2 (fəsil 6); |

| | | | |
|---|---|---|---|
| 12 | Sahibкarlıq risкininin təhlili-**2 saat** | Riskin mahiyyəti, növləri və onların təhlilinin ümumi prinsipləri; Risk dərəcəsinin qiymətləndirilməsi; Risk şəraitində maliyyə qərarlarının qəbul edilməsi; Riskin aşağı salınması üsullar. | 2 (fəsil 10); |
| 13 | Inflyasiya və onun maliyyə xaraкterli qərarların qəbul edilməsinə təsiri-**2 saat** | İnflyasiyanın ölçülməsi; İnflyasiya səviyyəsinin təşkilatın maliyyə nəticələrinə təsiri; İnflyasiya səviyyəsinin maliyyə nəticələrinə təsirinin qiymətləndirilməsi. | 2 (fəsil 11);<br>5 (fəsil 1-5); |
| | **Yekun imtahan** | | |

## XIII. Seminar-məşğələlərin məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Kommersiya təşkilatlarının maliyyə – təsərrüfat fəaliyyətinin idarə edilməsində təhlilin rolu-**1 saat** | İqtisadi təhlilin məzmunu, vəzifələri və onun digər iqtisad elmləri ilə qarşılıqlı əlaqəsi; İqtisadi təhlil idarəetmə qərarlarının qəbul edilməsinin əsas elementi kimi; İqtisadi təhlilin predmeti və obyekti; İqtisadi təhlilin növləri; Maliyyə və idarəetmə təhlilinin qarşılıqlı əlaqəsi. | 1 (fəsil 1) |
| 2 | Kompleks iqtisadi təhlil sistemi və onun təşkili metodologiyası-**1 saat** | İqtisadi göstəricilər sistemi və onların müxtəlif əlamətlər üzrə tipologiyası; Kompleks iqtisadi təhlilin məzmunu və mərhələləri; Təsərrüfat fəaliyyətinin təhlilinə sistemli yanaşma; | 1 (fəsil 2) |
| 3 | İqtisadi təhlilin metodu və onun xarakterik xüsusiyyətləri-**1 saat** | İqtisadi təhlilin kəmiyyət və keyfiyyət metodları; İqtisadi təhlilin metodu və metodikası anlayışı; Statistik, iqtisadi- | 1 (fəsil 3) |

| | | | |
|---|---|---|---|
| | | riyazi təhlil metodları və üsulları; İqtisadi göstəricilərin amillər üzrə təhlili metodları. | |
| 4 | Maliyyə təhlilinin mahiyyəti və müəssisənin maliyyə təsərrüfat fəaliyyətinin qiymətləndirilməsində onun rolu **-1 saat** | Müasir şəraitdə maliyyə təhlilinin rolu; Maliyyə təhlilinin informasiya təminat; Maliyyə təhlilinin metod və üsullarının təsnifatı. | 2 (fəsil 1-2); |
| 5 | Təşkilatın maliyyə nəticələrinin təhlili-**2 saat** | Gəlirlər və xərclər anlayışı. Gəlirlər və xərclər müəssisənin maliyyə nəticələrinin formalaşmasının iqtisadi bazası kimi; Təhlilin vəzifələri və informasiya mənbələri; Müəssisənin maliyyə nəticələrinin təhlilinin göstəricilər sistemi; Maliyyə hesabatının məlumatları əsasında balans mənfəətinin strukturu və dinamikasının təhlili; Satışdan alınan mənfəətin icmal hesablar üzrə təhlili. | 1 (fəsil 10); 3 (fəsil 1-12); |

| | | | |
|---|---|---|---|
| 6 | Rentabelliyin göstiricilər sistemi və onların təhlili-**1 saat** | Rentabelliyin təhlilinin göstəricilər sistemi və onların hesablanılması metodikası; Aktivlərin rentabelliyi göstəricilərinin modelləşdirilməsi amilli təhlilin təşkilinin əsas mərhələsi kimi; Aktivlərin rentabelliyi göstəricisi təsərrüfat subyektlərinin istehsal və kommersiya fəaliyyətinin səmərəlilik parametri kimi; Xalis aktivlərin rentabelliyi göstəricisi xüsusi kapitaldan istifadənin səmərəliliyini xarakterizə edən iqtisadi indikator kimi; İstehsal fondları rentabelliyinin amilli təhlili; Məhsulun (iş və xidmətlərin) rentabelliyi və onun səviyyəsinin yüksəldilməsi ehtiyatlarının amilli təhlili və s. | 1 (fəsil 11); |
| 7 | Təşкilatın maliyyə vəziyyətinin təhlili-**2 saat** | Maliyyə vəziyyətinin təhlilinin əhəmiyyəti, vəzifələri və əsas üsulları; Maliyyə təhlilinin əsas analitik informasiya mənbələri və onların iqtisadi xarakteristikası; Müəssisənin maliyyə vəziyyəti və onun sabitlik səviyyəsinin qiymətləndirilməsi üsulları; Maliyyə vəziyyətinin ekspress-təhlili; Maliyyə müstəqilliyinin təhlili; Ödəmə qabiliyyətinin və likvidliyin təhlili və s. | 1 (fəsil 12); 4 (fəsil 1-10); |
| 8 | Kapitalın formalaşmasının və istifadəsinin səmərəliliyinin təhlili-**1 saat** | Müəssisənin işgüzar fəallığının təhlili; Dövriyyə kapitalından istifadənin təhlili; Xüsusi və borc kapitalından istifadənin səmərəliliyinin təhlili; İstehsal-maliyyə leviricinin təhlili. | 1 (fəsil 12); 2 (fəsil 5); |

| | | | |
|---|---|---|---|
| 9 | Potensial müflisləşmənin təhlili və qiymətləndirilməsi-**1 saat** | Diaqnostik tədqiqat metodu müəssisənin maliyyə-təsərrüfat fəaliyyətinin sağlamlaşdırılmasının mühüm vasitəsidir; Müəssisənin diaqnostikasının metodologiyası və metodikası; Müəssisənin potensial müflisləşmə ehtimalının qiymətləndirilməsi üçün zəruri olan göstəricilər sistemi. | 1 (fəsil 14); |
| 10 | Təşкilatın investisiya fəaliyyətinin təhlili-**1 saat** | İnvestisiya fəaliyyəti təhlilinin məqsədi, vəzifələri və informasiya mənbələri; İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin təhlili; İnvestisiya fəaliyyətini xarakterizə edən göstəricilər sistemi və onların təhlili; İnvestisiya layihələrinin səmərəliliyinin təhlili və qiymətləndirilməsi. | 1 (fəsil 11,15);<br>2 (fəsil 22, 23);<br>3 (fəsil 14); |
| 11 | Təşкilatın dividend siyasətinin təhlili-**1 saat** | Təşkilatın dividend siyasətinin təhlili; Qiymətli kağızlar bazarı; Maliyyə aktivlərinin qiymətləndirilməsinin baza mod modeli; Qiymətli kağızlarla əməliyyatların təhlili. | 1 (fəsil 13);<br>2 (fəsil 6); |
| 12 | Sahibкarlıq risкininin təhlili-**1 saat** | Riskin mahiyyəti, növləri və onların təhlilinin ümumi prinsipləri; Risk dərəcəsinin qiymətləndirilməsi; Risk şəraitində maliyyə qərarlarının qəbul edilməsi; Riskin aşağı salınması üsullar. | 2 (fəsil 10); |
| 13 | Inflyasiya və onun maliyyə xaraкterli qərarların qəbul edilməsinə təsiri-**1 saat** | İnflyasiyanın ölçülməsi; İnflyasiya səviyyəsinin təşkilatın maliyyə nəticələrinə təsiri; İnflyasiya səviyyəsinin maliyyə nəticələrinə təsirinin qiymətləndirilməsi. | 2 (fəsil 11);<br>5 (fəsil 1-5); |

| | Yekun imtahan |
|---|---|

**XIV. Dərsə davamiyyət**

Tələbər dərslərin ən azı 75 faizində iştirak etməlidirlər. Bundan az dərslərdə iştirak edən tələbələr yekun imtahana buraxılmırlar.

**XVII. Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır. Balların bölgüsü aşağıdakı kimidir:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Seminar dərslərindəki cavablar və iştirak fəallığına görə | 20 | 20% |
| Aralıq imtahan | 30 | 30% |
| Yekun imtahan | 50 | 50 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə tələbənin bilik və bacarıqlarının attestasiyası bütünlüklə fənn üzrə 75 (yetmiş beş) sual üzərindən (hər mövzu üzrə 5 sual, keys və ya tapşırıq olmaqla) qiymətləndirilərək aparılır.

Aralıq imtahanı 5 (beş) mövzu üzrə olmaqla 25 (iyirmi beş) sualı əhatə edir. Suallar nəzəri biliklərə və praktiki tətbiqə (tapşırıqların həlli) əsaslanır. Aralıq imtahanı yazılı formada təşkil edilir. Aralıq qiymətləndirmə zamanı tələbə imtahanda 3 (üç) sualı cavablandırmaqla (hər sualın cavabı maksimum 10 bal üzərindən olmaqla) maksimum 30 bal toplaya bilər.

Yekun qiymətləndirmə qalan mövzular üzrə 50 sual, keys və tapşırıqlar üzrə keçirilir. Yekun imtahanı zamanı tələbənin biliyi 5 (beş) sualın cavabə əsasında (hər sualın cavabı maksimum 10 baı üzərindən olmaqla) maksimum 50 bal dəyərləndirilir.

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**

51-60 bal - "qənaətbəxş" – **E**

61-70 bal - "kafi" – **D**

71-80 bal - "yaxşı" – **C**

81-90 bal - "çox yaxşı" – **B**

91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**

**"Maliyyə audit" kafedrasının**

**Professoru, i.e.d. H.A.Cəfərli**

